

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 57 (24.194)

*1 aprel 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik



*2023-cü il “Heydər Əliyev İli”dir*

## Heydər Əliyev Azərbaycançılıq məfkurəsini milli ideologiya səviyyəsinə yüksəldən dahi şəxsiyyətdir

*Müasir dünyada təzahür edən və böyük rola malik ideoloji cərəyanlardan biri milli ideologiyadır. Milli ideologiya, hər şeydən əvvəl, milli dəyərlərin bu və ya digər səviyyədə başa düşülməsini ehtiva edir. Daha dəqiq desək, müəyyən tarixi şəraitdə yaranmış milli ideologiya mədəni normalarla və milli-mənəvi dəyərlərlə əhatə olunmuş milli özünüdərki və milli ruhu təcəssüm etdirir, milli-mədəni yekcinsliyin güclənməsinə imkan yaradır. Bu baxımdan ölkəmizdə əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycançılıq ideologiyasının formalaşması dövlətçiliyimiz və xalqımızın inkişafında mühüm rol oynamış, milli özünüdərkin və milli ruhun dirçəlməsinə səbəb olmuşdur.*

Ulu Öndərin müəllifi olduğu Azərbaycançılıq ideologiyası Azərbaycanda yaşayan, onu Vətən bilən bütün fərdləri birləşdirən ideologiyadır. Azərbaycançılıq milli məfkurədir, dahi şəxsiyyətin Azərbaycan cəmiyyətinə təqdim etdiyi universal dəyərlər sistemidir. Eyni zamanda Azərbaycan cəmiyyətinin bütün təbəqələrində qəbul edilən, mənimsənilən və həyat tərzinə çevrilən bir ideoloji xətdir. Azərbaycançılıq bizim həm dövlət, həm də milli ideologiyamızdır. Təsadüfən deyilməyib ki, ideologiya Vətən haqqında vahid elmi sistemdir. Ona görə də bizim bugünkü dövlətçiliyimizin atributları – bayrağımız, gerbimiz, himnimiz, milli valyuta və Konstitusiyamız məhz Azərbaycançılığa əsaslanır.

Görkəmli dövlət xadimi Heydər Əliyev siyasi fəaliyyəti ilə Azərbaycançılıq ideologiyasının mahiyyətini təşkil edən əsaslardan biri kimi milli-mənəvi dəyərlərin, ana dilinin və mədəniyyətin qorunub saxlanması və inkişaf etdirilməsinə nail olmuşdu. Ulu Öndər bununla bağlı qeyd edirdi ki, milli ideologiyamızın konsepsiyası tarixi keçmişimizi, milli adət-ənənələrimizi, dilimizi, dinimizi və mədəniyyətimizi əks etdirməli, bu dəyərlərin qorunub saxlanılmasına və inkişafına xidmət etməlidir.

***“Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!”*** Bu müdrik kəlam Ümummilli Liderimizin milli-mənəvi dünyasını, vətəndaş mövqeyini və varlığını göstərən, öz milli köklərinə bağlılığını sübut edən tarixi bir bəyanatdır.

Dahi rəhbərin yaratdığı Azərbaycançılıq ideologiyası və onun məzmununa daxil edilmiş əsas prinsiplər 1995-ci ildə ümumxalq referendumu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında da öz əksini tapmışdır. Ümummilli Lider dövlətçilik maraqlarının qorunması deyəndə, ilk növbədə, hamılıqla qəbul etdiyimiz ölkənin Ali Qanununun – Konstitusiyanın müddəalarına əməl olunmasını nəzərdə tuturdu.

Ulu Öndər Heydər Əliyev müstəqillik dövrünün dövlət ideologiyasını formalaşdırarkən XX əsr ziyalılarının əsərlərində milli ideya kimi təcəssümünü tapan türkçülük və Azərbaycançılığı yeni tarixi şəraitdə milli dövlətçilik ideologiyası kimi sistemə saldı, ümummilli ideya, dünya azərbaycanlılarının ideologiyası, milli birlik təlimi kimi əsaslandırdı.

Dahi şəxsiyyət Azərbaycan dilinin, tarixinin, ədəbiyyat və mədəniyyətinin yeni – Azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya və strategiyasını formalaşdırdı. Bu baxımdan “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 2001-ci il 18 iyun tarixli və “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 2001-ci il 9 avqust tarixli fərmanlar böyük tarixi-siyasi əhəmiyyətə malik sənədlər idi.

Ümummilli Liderimiz 1993-cü ildən başlayaraq xarici səfərləri zamanı həmvətənlərimizlə görüşlərində onları vahid ideya – Azərbaycançılıq ideyası ətrafına toplamağa çalışır və bunun üçün böyük səylər göstərirdi. Dahi rəhbər qeyd edirdi ki, Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə “azərbaycanlı” anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Məhz buna görə də müəllifi dünya şöhrətli siyasətçi Heydər Əliyev olan Azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxslər üçün yox, eyni zamanda bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən milli məfkurəyə çevrilmişdir. Ulu Öndər ölkə rəhbərliyinə yenidən qayıtdıqdan sonra milli ruhun yüksəlməsi, milli özünüdərkin inkişafı və xalqın yaddaşının özünə qaytarılması kimi fundamental prinsip və vəzifələrə xidmət edən Azərbaycançılıq məfkurəsini yenidən formalaşdırmaqla dövlətin qüdrətinin artmasında real siyasi amilə çevrildi.

Ümummilli Lider, həmçinin həm müstəqil Azərbaycanın iqtisadi strategiyasını müəyyənləşdirdi, həm də müstəqil dövlət ideologiyası olaraq Azərbaycançılığın iqtisadi təməllərini formalaşdırdı. Bununla da görkəmli dövlət xadimi Azərbaycançılığı dövlətçiliyə tətbiq etdi, Azərbaycançılığa əsaslanan milli dövlət yaratdı, xalqda dövlətçilik hissini formalaşdırdı. Məhz onun sayəsində xalqda dövlətə və dövlət rəhbərinə inam hissi gücləndi.

Dahi şəxsiyyət üçün Azərbaycançılıq ideologiyasının mahiyyətini təşkil edən əsaslardan biri də milli-mənəvi dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi idi. Ulu Öndər bununla bağlı qeyd edirdi: ***“Milli ideologiyamızın konsepsiyası tarixi keçmişimizi, milli adət-ənənələrimizi, dilimizi, dinimizi və mədəniyyətimizi əks etdirməli, bu dəyərlərin qorunub saxlanılmasına və inkişafına xidmət etməlidir”.***

Ümummilli Lider “milli ideologiya” anlayışının əsaslarını şərh edərkən bildirirdi: ***“Milli ideologiya nədən ibarətdir? Birinci, dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə də, hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır”.***

Azərbaycançılıq ideologiyasının bizi birləşdirən meyar olmasını əsas tutaraq hər birimiz buna uyğun əməli fəaliyyət sərgiləməliyik. Ancaq milli birliyi, həmrəyliyi tənin etməklə üzləşdiyimiz bütün çətinlikləri dəf edə bilərik. Biz 2020-ci ildə, 44 günlük Vətən müharibəsi dövründə də bunun şahidi olduq və bütün dünya qəbul etməli oldu ki, milli həmrəyliyimiz, xüsusilə də dövlət-xalq-ordu birliyi Qələbəmizi şərtləndirən amillərdən biri, bəlkə də, birincisidir.

**İlahə FƏRƏCOVA**
***Cəmşid Naxçıvanski adına Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin direktoru***

## *“Ümummilli Lider Heydər Əliyev və Azərbaycanlıların soyqırımı və deportasiyasının tarixi məsələləri”* mövzusunda konfrans keçirilib

*“Naxçıvan” Universitetində “Ümummilli Lider Heydər Əliyev və Azərbaycanlıların soyqırımı və deportasiyasının tarixi məsələləri” mövzusunda konfrans keçirilib. Konfrans Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı ilə birgə təşkil olunub.*



Faciə qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra “Naxçıvan” Universitetinin rektoru, dosent Anar Kazımov 31 mart soyqırımının tarixi, siyasi və ideoloji aspektlərindən danışıb, XX əsrin əvvəllərindən başlayaraq, xüsusilə 1918-ci ildə erməni daşnaklarının xalqımıza qarşı kütləvi qırğınlar törətdiyinə diqqət çəkib.

Qeyd edilib ki, bu dəhşətli soyqırımı aktına yalnız Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra Ümummilli Lider Heydər Əliyev tərəfindən siyasi-hüquqi qiymət verilib. Ulu Öndərin 1998-ci il martın 26-da imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib. Bu gün isə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə erməni təcavüzünün nəticələrinin aradan qaldırılması, respublikamızın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətində ardıcıl və məqsədyönlü işlər görülür. Dövlət başçısı cənab İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli “Quba şəhərində Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında” Sərəncamı bu istiqamətdə mühüm addımlardan biridir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində gerçəkləşdirdiyi mühüm layihələr xüsusi qeyd edilmələdir.

“Ulu öndər Heydər Əliyevin azərbaycanlıların soyqırımı və deportasiyası haqqındakı fərmanlarının tarixi-siyasi və hüquqi əhəmiyyəti” məruzəsi ilə çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, dosent Elman Cəfərli təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasəti barədə tədbir iştirakçılarına məlumat verib.

Bildirilib ki, mənfur düşmənin havadarları ilə birgə illərlə davam etdirdiyi işğal, deportasiya və soyqırımı siyasətinə 44 günlük Vətən müharibəsi ilə ağır zərbə vurulub. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun Qələbəsi nəticəsində tarixi ədalət bərpa olundu və xalqımız “Böyük Qayıdış” proqramı çərçivəsində doğma torpaqlarına qayıdır.

Daha sonra “Naxçıvan” Universitetinin Ümumi tarix kafedrasının dosenti Elçin Zamanov, universitetin Tarix müəllimliyi ixtisasının III kurs tələbəsi Gülçin İmanova və Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini, Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev çıxış edərək ermənilərin 1918-ci ilin mart ayında azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərdən söz açıb, bu faciənin yaddaşlardan heç zaman silinməyəcəyini bildiriblər.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

## Ümummilli Lider Heydər Əliyev müasir dövlət qulluğu sisteminin banisidir



Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Dövlət İmtahan Mərkəzinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi və Dövlət və ictimai münasibətlər ixtisaslarında təhsil alan tələbələrin iştirakı ilə “Ümummilli Lider Heydər Əliyev Azərbaycanda müasir dövlət qulluğu sisteminin banisidir” mövzusunda tədbir keçirilib.

Universitetin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekan müavini Abbas Əhmədov tədbiri giriş sözü ilə açaraq keçirilən görüşün əhəmiyyətindən danışıb.

Sonra Dövlət İmtahan Mərkəzinin sədr müavini Ümid Qurbanov çıxış edərək bildirib ki, Azərbaycan Respublikasında müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafı Ulu Öndərin adı ilə bağlıdır. Məhz görkəmli dövlət xadiminin 1993-cü ildə ali siyasi hakimiyyətə qayıdışından sonra ölkədə xaos və anarxiyanın qarşısı alındı, sabit dövlət idarəçiliyi təmin olundu. Ümummilli Liderin rəhbərliyi ilə 2000-ci il iyulun 21-də respublikamızda ilk dəfə olaraq “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Qeyd olunub ki, dahi şəxsiyyət Heydər Əliyevin dövlət qulluğu siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi ilə dövlət qulluğu sahəsində mütərəqqi normativ-hüquqi baza formalaşdırılır, dövlət qulluğu sahəsində münasibətlərin tənzimlənməsi daim nəzərdə saxlanılır. Görülən işlərə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında da dövlət orqanlarının günün tələblərinə uyğun fəaliyyət göstərməsi üçün hərtərəfli şərait yaradılıb, dövlət qulluqçuları qayğı ilə əhatə olunub.

Sonra Dövlət İmtahan Mərkəzinin baş məsləhətçisi Məmməd Babayev və sektor müdiri Zaman Bağırov slayd vasitəsilə tədbir iştirakçılarına “Azərbaycanda müasir dövlət qulluğu sisteminin təşəkkülündə Ulu Öndər Heydər Əliyevin rolu” və “Azərbaycan Respublikasında dövlət qulluğu sistemi” mövzularında çıxış ediblər.

80 tələbənin iştirakı ilə keçirilən tədbirin sonunda tələbələri maraqlandıran sullar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

2023-cü il "Heydər Əliyev İli"dir

# Heydər Əliyev siyasətinin işığı Naxçıvanı nurlu sabahlara çıxarıb

*Dörd-beş il bundan əvvəl baş redaktor daxili telefonla məni otağına çağıraraq otaqda əyləşmiş polis polkovniki rütbəli bir nəfərlə tanış etdi. Qısa tanışlıq tez bir zamanda yaxın dostluğa çevrildi. Mətləbdən uzaqlaşmadan deyim ki, polis polkovniki Rahib Qarayev Laçın rayonunda doğulub, uşaqlıq illəri orada keçib. Ailəsi ilə Bakıya köçüblər. Ali təhsilini başa vurduqdan sonra Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində jurnalist kimi fəaliyyətə başlayıb – "Mübariz keşikdə" qəzetinin müxbiri kimi respublikamızı qarış-qarış gəzib. Bu kiçik tərcümeyi-halını danışdıqdan sonra ondan müsahibə götürdüm: "Bugünkü nəsil bilməlidir ki, yaşadığımız həyatı bizə Ulu Öndər bəxş edib". Həmin müsahibə 2018-ci ildə həm doğma "Şərq qapısı"nda, həm də mərkəzi mətbuatda işıq üzü gördü.*



Onu da deyim ki, 1994-cü ildən Naxçıvana gəlib-gedən Rahib Qarayev hər il məzuniyyətinin bir neçə gününü Naxçıvanda keçirir. Ötən bu illərdə dövlətimizin Naxçıvana göstərdiyi qayğının artıq davamlı xarakter aldığını da tez-tez vurğulayır.

Naxçıvana budəfəki səfərində qədim diyarımızda Ulu Öndərin adı ilə bağlı olan ünvanları gəzdik, Heydər Əliyev Muzeyində, Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə, hərbi liseydə olduq. Hər bir ünvanın görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi quruculuq siyasətinin, necə deyərlər, işığına boyandığını gördük. Ulu Öndərin adını daşıyan prospekt boyu yerləşən ictimai yaşayış, müxtəlif idarə, müəssisə və təşkilatların, sahibkarlıq subyektlərinin fəaliyyət göstərdikləri binalarda aparılmış yenidənqurma işləri bu ünvana xüsusi gözəllik verib və hər bir naxçıvanlı belə gözəllikləri diyarımızın bütün bölgələrində görə bilər. Müsahibim bunları seyr edib bir qədər keçmişə qayıdır:

– Səmimi deyim ki, buraya gələndə özümü evimdəki kimi hiss edirəm. Elə bil ki, burada doğulmuşam, burada böyüyüb təhsil almışam, burada da işləyirəm. Belə olmasaydı, hər il ailəmlə buraya gəlməzdim. Naxçıvanın bu gününü görəndə qədim diyarınıza ilk dəfə gəlməyimi xatırlayıram. Ucqar əyalətdən seçilməyən paytaxt şəhəri, fasilələrlə yanan işıq, istiliksiz evlər, tozlu-torpaqlı küçələr... Kənd yaşayış məntəqələri, rayon mərkəzləri bundan da bərbad vəziyyətdə. Təhsil, səhiyyə, mədəniyyət, rabitə və digər sahələrin fəaliyyəti barədə heç bir yaxşı söz demək olmazdı. Bu mənzərələri bugünkü uşaqlara danışsan, yəqin ki, inanmazlar. İnanmazlar ki, bəli, Naxçıvan belə günləri yaşayıb. Yaşayıb və dözüb. Dözüb və bu günlərə sahib olub. Onu bu firavan günlərə qovuşduran isə Ümummilli Liderimiz Heydər Əliyev və O dahi şəxsiyyətin siyasətini böyük sevgi və ehtiramla davam etdirən dövlət başçımızdır. Və Naxçıvandan başlanan bu siyasət ölkəni əhatə edib. Qurmaq, yaratmaq siyasəti buradan başlayaraq Azərbaycanın hər yerinə gedib çıxıb. Müsahibim sözünü bir qədər ara verib Ulu Öndərin bir kəlamını xatırladır: ***"Naxçıvanın qədim dövlətçilik tarixi vardır. Bu, Azərbaycanın dövlətçilik tarixidir".*** Qürurvericidir ki, naxçıvanlılar bu tarixi qoruya, yaşada bilirlər. Onu da deyim ki, Naxçıvanın günbəgün, ilbəil deyil, saatbasaat dəyişməsini, gözəlləşməsini, müasirləşməsini hər gəlişimdə görürəm. Bütün bunlar sizin gözlərinizin qarşısında baş verdiyi üçün fərqinə varmırsınız və ikinci tərəfdən bu yeniləşmə Naxçıvanda ölkə başçısının böyük diqqət və qayğısı ilə illərdir ki, davam edir. Azərbaycan Prezidentinin Naxçıvana hər gəlişi burada toybayrama çevrilir, naxçıvanlılar möhtəşəm açılışlara şahid olur, yeni tikiləcək obyektlərin sevincini yaşayırlar.

Müsahibimin Naxçıvanla bağlı söhbətləri məndə elə qənaət yaratmışdı ki, kənardan eşidənlər Rahib Qarayevin Naxçıvanda yaşadığını güman edərdi. Onu rus kosmonavt-rəssamı Leonovun Naxçıvan haqqında dediklərini xatırlaması məni də ürəkdən sevindirir: *"Kosmosdan Yer kürəsi son dərəcə gözəl, çəhrayı bir rəngdə görünür. Yerə qayıdandan sonra hara yolum düşürdüsə, həmin rəngi axtarırdım. Nəhayət, Naxçıvanda tapdım. Kosmosdan baxanda bütün Yer kürəsi Naxçıvan torpağının rəngində görünür".*

Doğrudan da, rus kosmonavt-rəssamının qədim və doğma diyarımıza verdiyi bu dəyər hər bir naxçıvanlının qəlbində böyük qürur hissi yaradır. Mövcudluğu dövründə başı bəlalar çəkən, torpaqlarına göz dikilən, yeraltı və yerüstü sərvətləri düşmənlərə gözdağı olan Naxçıvan heç kəsə baş əyməyib, onun igid, yurdsevər oğulları yurdumuzun hər qarışını vətənpərvərliklə qoruyublar, babalarımızın dediyi "Torpaqdan pay olmaz" vəsiyyətinə əməl ediblər. Bu gün də bu vəsiyyət naxçıvanlılar üçün yazılmamış qanundur... Artıq qədim diyarımızın bütün bölgələri ölkə başçısı cənab İlham Əliyevin hərtərəfli diqqəti sayəsində inkişafın, tərəqqinin yeni mərhələsindədir.

Müsahibim Sədərək rayonuna getməyimizin mümkünlüyünü soruşur. Bildirirəm ki, bu sərhəd bölgəsində rayon yaradılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Rayon mərkəzinə Ulu Öndərin adının verilməsi isə görkəmli dövlət xadiminə böyük sevgi və məhəbbətin ifadəsidir. Qonağımın xahişini yerə salmayıb yola düşürük.

***"Sədərək həmişə bizim, Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir. Mən indi qəsəbəni bu cür görəndə həddindən artıq sevinirəm. Çünki sizin, yəqin ki, xatirinizdədir, vaxtilə, 1977-ci illərdə mən Azərbaycanın başçısı olduğum zaman kənddən aralı bu qəsəbənin salınması haqqında qərar verdim. Nə üçün kənddən aralı? Ona görə ki, o vaxtlar ermənilər yavaş-yavaş bu torpaqlara iddia edir, bu bizimdir, o bizimdir deyirdilər. Mənim yadımdadır, burada bir Həsənqulu bağı vardı... Guya ki, o bağ onlarındır. Sonra mən 1990-cı ildə buraya gələndə bu məsələlərlə məşğul olmuşam. O vaxt mən bunları hiss edirdim. Ona görə mən belə qərara gəldim ki, burada Azərbaycana Naxçıvan tərəfdən giriş yerində müasirtipli evlər tikək ki, Ermənistanın ərazisindən buraya keçənlər, – yadınızdadırsa, o vaxt gediş-gəliş çox idi, turistlər də gedib-gəlirdi, sovet vaxtı başqaları da gedib-gəlirdi, – onlar görsünlər ki, Azərbaycan torpağında indi yaşayış necədir. Ona görə mən burada o vaxt bu qəsəbəni salmaq barədə göstəriş verdim".*** Bu sözləri Ümummilli Lider Heydər Əliyev 21 il bundan əvvəl – 14 avqust 2002-ci il tarixdə Sədərək rayonunun sakinləri ilə görüşdəki çıxışında deyib.

Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində 1990-cı ilin avqust ayının 28-də Sədərək kəndinin bazasında yaradılan Sədərək rayonunun inkişafı, infrastrukturunun gücləndirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilib, hərtərəfli dövlət qayğısı ilə bu istiqamətdə böyükhəcmli layihələr reallaşdırılıb, rayon özünün inkişaf və tərəqqi yoluna qədəm qoyub. Yeri gəlmişkən onu da qonağın diqqətinə çatdırıram ki, dahi rəhbərin layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev 2010-cu ilin oktyabr ayında muxtar respublikaya səfəri zamanı Sədərək rayonunda da olub. Bir neçə obyektin, o cümlədən yenidən qurulmuş Heydərabad qəsəbəsinin açılışında iştirak edib. Dövlət tərəfindən tikilmiş ikimərtəbəli 16 fərdi yaşayış binası həmin gün istifadəyə verilib. Dövlət başçısı qəsəbə sakinlərini təbrik edərək deyib: ***"... Gözəl evlər, binalar tikilib. Qəsəbə yeni dövrə qədəm qoyur. Bütün işlər ən müasir səviyyədə görülübdür... Bu, doğrudan da, böyük hadisədir. Heydərabad qəsəbəsinin Azərbaycan tarixində çox mühüm yeri vardır".***

Bu, doğrudan da, belədir. Naxçıvanın coğrafi mövqeyi onun tarixi taleyinə bir çox yaşayış məntəqələrində erməni adlı mənfur düşmənlə qonşuluq qisməti yazıb. Yüz illərboyu özlərinin çirkin əməllərini gah gizlin, gah da aşkarda həyata keçirən daşnakların 1988-ci ildə yenidən üzə çıxan əsassız torpaq iddiaları, bu iddiaların yaratdığı məlum hadisələr sərhəd yaşayış məntəqələri sakinlərinin sərhədçi ömrü yaşamaları ilə nəticələndi. Ata-baba əmanəti olan torpaqlarımızın qorunması, düşmən tapdağına çevrilməməsi üçün bütün Azərbaycan ayağa qalxdı, o ağır illərdə belə, yurd yerlərimiz qəhrəmanlıqla qorundu, "Torpaq – uğrunda ölən varsa, Vətəndir!", – deyib səngərlərə atılaraq "Təki Vətən sağ olsun!" amalı ilə ölümün gözünə dik baxdı eloğullarımız. Bu mücadilədə sağlamlığını itirən, evlərinə qazi kimi qayıdanlar da az olmadı. Yüzlərlə igidimiz isə şəhidlik zirvəsinə ucaldı. Onların ruhu qarşısında baş əyən naxçıvanlılar bu gün muxtar respublikada bərqərar edilmiş ictimai-siyasi sabitlik, əmin-amanlıq, yenidənqurma prosesləri fonunda həyata keçirilən tədbirləri ürəkdən dəstəkləyir, bu tədbirlərdə fəallıq göstərirlər. Bunun ifadəsidir ki, doğma muxtar diyarımız, onun bütün bölgələri müasirlik donundadır. Bütün bunlar Ulu Öndərin siyasətini ehtiramla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin qədim diyara böyük diqqət və qayğısının təzahürüdür.

***

Fevral ayının 21-i. Həmin gün Heydər Əliyev Sarayında Bakıdan ölkənin aparıcı vətəndaş cəmiyyəti təşkilatlarının 250 nəfər nümayəndəsinin iştirakı ilə "Heydər Əliyev və vətəndaş cəmiyyəti quruculuğu" mövzusunda konfransın keçirilməsi hər birimizi sevindirdi. Konfransdan əvvəl Rahib Qarayevlə sarayda yerləşən təşkilatların fəaliyyəti ilə tanış olduq. Gördüklərinin Rahib Qarayevdə yaratdığı yüksək təəssüratlar, təbii ki, məni də sevindirdi.

Konfransda iştirak imkanı yaradıldığı üçün dərin minnətdarlığını bildirdi. Konfransdan sonra bir qədər də şəhərimizdə gəzişdik, şəhər sakinləri, buraya gələn qonaqlarla həmsöhbət olduq.

Gedəcəyimiz növbəti ünvan isə qonağı yola salmaq üçün Heydər Əliyev adına Naxçıvan Beynəlxalq Hava Limanı idi. Bu da hava limanı... Hər tərəf işığa bürünüb. Gəlib-gedənləri qarşılayıb yola salan liman işçiləri onlara tapşırılan vəzifənin öhdəsindən gəlməyə səy göstərirlər. Bu da, təbii ki, sərnişinlərin diqqətindən yayınmır.

Bunu Rahib Qarayev də görür: – Bu təkcə naxçıvanlıları deyil, hər bir azərbaycanlını ürəkdən sevindirir. Bəli, Naxçıvanın qovuşduğu bugünkü həyat tərzi Ulu Öndər Heydər Əliyev ideyalarının işığı hesabına mümkün olub... Bu işığın ziyası Naxçıvanda heç vaxt sönməyəcək, daim yanacaq, naxçıvanlıların yollarını işıqlandıracaq.

**Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## *"Çağdaş Azərbaycan dilinin aktual problemləri"* III respublika elmi konfransı olub



***"Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan onun dilidir".*** Ulu Öndər Heydər Əliyevin bu dəyərli fikirləri Naxçıvan Dövlət Universitetində "Çağdaş Azərbaycan dilinin aktual problemləri" mövzusunda keçirilən III respublika elmi konfransında səsləndirilib. Konfransda çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı ardıcıl və uğurlu dövlət quruculuğu siyasətində ana dilinin qorunması və zənginləşdirilməsi məsələləri həmişə önəmli yer tutub. Bunu ölkə Prezidentinin Azərbaycan dili ilə bağlı silsilə sərəncam və fərmanları, eləcə də müxtəlif tədbirlərdəki çıxışları zamanı səsləndirdiyi qiymətli fikirlər sübut edir. Rektor ali təhsil ocağında artıq üçüncü ildir ki, keçirilən konfransın əhəmiyyətini vurğulayıb. Bildirilib ki, Prezident cənab İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı Azərbaycan dövlət dilinin saflığının qorunması və işlək mexanizmlərinin təkmilləşdirilməsi baxımından universitetin qarşısına daha məsuliyyətli vəzifələr qoyur.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Əbülfəz Quliyev "Professor Yusif Seyidovun elmi irsində yazıçı və dil problemi" mövzusunda çıxışında qeyd edib ki, Azərbaycan dilçilik elminin bir böyük dövrü Yusif Seyidovun adı ilə bağlıdır. Bildirilib ki, dilimizdə qrammatik təhlilin bədii materiallar əsasında aparılması, söz birləşmələri ilk dəfə məhz bu görkəmli alim tərəfindən araşdırmaya cəlb olunub.

Naxçıvan Dövlət Universitetinin professoru Sədaqət Həsənova "Azərbaycan bədii dilinin özəllikləri (İ. Səfərlinin yaradıcılığı əsasında)" adlı çıxışında bildirib ki, unudulmaz şairimiz İslam Səfərli Azərbaycan torpağını, Azərbaycan təbiətini və Azərbaycan insanının duyğularını ən üræyayatan bir mahnı kimi təqdim edən söz sənətkarı olub.

Sonra konfrans Naxçıvan Dövlət Universiteti, AMEA Dilçilik və Ədəbiyyat institutları, Azərbaycan Dövlət Pedaqoji Universiteti, AMEA Naxçıvan Bölməsi, "Naxçıvan" Universiteti və Naxçıvan Müəllimlər İnstitutundan professor-müəllim heyəti, doktorant və dissertantların qatıldığı 4 bölmə iclası ilə işini davam etdirib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## *"Açıq qapı"* günü keçirilib

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşları təsdiq edilən tədbirlər planının icrasına müvafiq olaraq "Açıq qapı" günlərinin keçirilməsini davam etdirirlər.



Növbəti qəbul Ordubad Rayon Məhkəməsinin inzibati binasında olub. Vətəndaşlar fərdi qaydada qəbul edilərək müraciətləri dinlənilib və müvafiq qaydada qeydə alınaraq rəsmiləşdirilib. Əsasən aliment, pul tələbi, qeydiyyat və notariat əməliyyatları ilə bağlı müraciət edən vətəndaşlara qanunamüvafiq məsləhətlər verilib və həlli mümkün olan məsələlərə dəstək göstərilib. Ədliyyə fəaliyyətinə uyğun araşdırma tələb edən müraciətlər isə həll edilməsi üçün nəzarətə götürülüb.

Qeyd edək ki, "Açıq qapı" günləri çərçivəsində cari ilin 3 ayı ərzində nazirliyin əməkdaşları tərəfindən 5 rayonda görüş keçirilib. Növbəti qəbulun aprel ayının 11-də Şərur, 28-də isə Sədərək rayonlarında keçilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Qərbi Azərbaycan torpağının qaranlıq taleyinə işıq salan səhifələr...

*2022-ci il ölkəmizin həyatında bir sıra siyasi, iqtisadi islahatlarla yanaşı, həm də tarixi torpaqlarımız Qərbi Azərbaycana qayıdış məsələsinin dövlət səviyyəsində qətiyyətli şəkildə gündəmə gəlməsi ilə yadda qaldı. Belə ki, ölkə Prezidenti cənab İlham Əliyev ötən il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanışlıqdan sonra Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı tarixi torpaqlarımıza Qayıdış Konsepsiyasının işlənib hazırlanmasının vacibliyini ön plana çəkdi. Qətiyyətli siyasi lider nəşrlərin artırılmasını, xalqımıza xas tarixi həqiqətlər haqqında dünya ictimaiyyətinə geniş informasiya verilməsini, təbliğatın, maarifləndirmə işlərinin gücləndirilməsini mühüm tapşırıq kimi qarşıya qoydu:* ***"...İcmanın bundan az əhəmiyyət kəsb etməyən beynəlxalq müstəvidə fəaliyyəti olmalıdır. Çünki biz bu həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq, necə ki, Qarabağ həqiqətlərini çatdırmışdıq. Faktiki olaraq biz 1990-cı illərin əvvəllərində Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvürü tamamilə dəyişdirə bildik. İnformasiya müharibəsi və İkinci Qarabağ müharibəsi onu göstərdi ki, bu, az əhəmiyyət kəsb etmir... Əlbəttə ki, bizim tarixi həqiqətlərlə bağlı kitablarımız yenilənməlidir. Müəyyən dövrdə kitablar dərc edilmişdir, o cümlədən tarixi şəhərlərimizin, kəndlərimizin adları ilə bağlı kitab dərc edilmişdir..."***




Ötən dövrdə muxtar respublikada Qərbi Azərbaycan haqqında nəşr olunan vəsaitlərin axtarışına düşdükdə 2010-cu ildə "Qismət" nəşriyyatında çapdan çıxmış tarix elmləri doktoru Zəhmət Dərələyəzlinin və Rövşən Dərələyəzlinin "Dərələyəz taleyi. Şəhidlər və döyüşçülər" kitabı diqqətimizi çəkdi. Məsləhətçiləri akademik İsa Həbibbəyli, iqtisad elmləri doktoru İsa Alıyev, rəyçiləri akademik İsmayıl Hacıyev, professor Hacı Fəxrəddin Səfərli, dosent Nazir Əsədov olan nəşrdə mənbələr əsasında mahalın bütün kəndlərindəki tarixi abidələrin tikilmə tarixindən, eyni zamanda müxtəlif illərdə bu kəndlərdə yaşayan azərbaycanlıların say tərkibindən, mənfurların bu əraziyə köçürülmələrindən, erməni qəsbkarlarının və onların havadarlarının xalqımızın başına gətirdikləri misligörünməmiş müsibətlərdən geniş söhbət açılır. Kitabda yer alan tarixi əhəmiyyətli məqamları oxucuların nəzərinə çatdırmaq istərdik: İrəvan qalabəyisi və Qərbi Azərbaycan bəylərbəyi Rəvan xanın Şah İsmayıl Xətaiyə yazdığı məktubdan görünür ki, ermənilərin Azərbaycan torpaqlarına ilk gəlmələri 1519-cu ildən başlanıb. Məktubda erməni qızlarının ismətsizliyi aşkara çıxarılır və onların hansı yollardan istifadə edərək yerləşmələri tamamilə aydınlaşır. Dərələyəzin Qoytul kəndinin, Arpaçayın kənarı, Hosdun kəndindəki bulaq, Həsənkəndindəki tarixi Alban kilsəsi, Səlimələn yaylağı, Ələyəz kəndinin qənşəri və tarixi ərazilərimizin 2005-ci ilə aid digər fotoları yurdumuzun qədimliyindən, milliliyindən, bənzərsizliyindən danışır. Nəşrdə qeyd edilir ki, Naxçıvan sancağına tabe olan Dərələyəz mahalındakı kəndlərin adlarının bir çoxu dəyişdirilib, bəzilərinin adlarını dəqiqləşdirmək, müəyyənləşdirmək çətinlik törədir. 27 avqust 1727-ci ildə "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Dərələyəz nahiyəsinə tabe olan 105 kəndin adı və gəlir vergisi qeyd edilib. Nümunə üçün bir neçəsini göstərmək olar: Axura kəndi, gəlir – 8,065 axça, Kosalı kəndi, gəlir- 8,434 axça, Havic kəndi, gəlir- 2,758 axça (Qeyd edək ki, axça 1328-1687-ci illərdə Osmanlı imperiyasında dövriyyədə olmuş gümüş pul vahididir). Kitabda 1728-ci ilə aid İrəvan əyalətinin müfəssəl dəftərindən əyalətin inzibati quruluşunu göstərən qeydlər də yer alıb. Həmin qeydlərə görə, inzibati quruluş İrəvan şəhəri, Qırxbulaq, Karbi, Maku, Xınzırək, Karni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrə, Sürməli, İqdır, Aralıq, Şərur, Sədərək, Zarzamin nahiyələri, Şürəgəl livası, Naxçıvan sancağı isə Naxçıvan şəhəri, Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Dərələyəz və Sisyan nahiyələrindən ibarət olub.

Kitabda Nadir şah dövründə (1736-1747) fars dövlətinin zülmündən ermənilərin Asiya Türkiyəsinə və ya Gürcüstana qaçdığı zaman Dərələyəzin şərq hissəsinin tamamilə boşaldığı, həmin ərazidə Qaracalar kürdlərinin qarabağlı törəmələri olan yerli əhalinin məskunlaşdığı bildirilir. Verilən məlumatlara görə, Dərələyəzin şərq hissəsinə düşən kəndlərin sayı 44, təsərrüfatlar isə 910 idi. Həmin təsərrüfatlardan 247-si XIX əsrin 30-cu illərində İran və Türkiyədən köçürülən ermənilərin payına düşüb. Nəşrdə, həmçinin qədim Azərbaycan torpağı Dərələyəzin torpaqlarının gilli xüsusiyyətli olduğu qeyd edilir. Yazılana görə, Arpaçay boyunca alçaq hissələr və ona tökülən dağ çaylarının vadiləri olduqca münbit idi, taxıldan başqa böyük miqdarda çəltik və digər dənli bitkilər əkilir, dağ dəmyələrində bol miqdarda buğda, arpa, kətan, küncüd və sair bitkilər becərilirmiş. Dərələyəzin qərb hissəsinin əhalisi əkinçiliklə məşğul olur, meyvə, üzüm bağları salır, təsərrüfatlarda heyvan da saxlayırmışlar. Bunun əksinə olaraq mahalın şərq hissəsinin əhalisi isə müstəsna dərəcədə heyvandarlıqla məşğul olmağa üstünlük verir, ailə təsərrüfatının tələbatını ödəmək naminə kiçik sahələrdə taxıl əkirmişlər. Taxılın miqdarı 650 xalvar (Qeyd: 1 xalvar 25 puda bərabərdir ki, bu da, təxminən, 400 kiloqram deməkdir) olurmuş. Müəlliflərin qənaətinə əsasən Dərələyəzin bir çox yerlərində iri kəndlərin xarabalıqlarına rast gəlinir. Bu, aydın şəkildə onu göstərir ki, əvvəllər burada çoxlu əhali yaşayıb, lakin xarabalıqların ölçüsünə, əkinçilik üçün yararlı torpaqların sahələrinə görə, güman etmək olar ki, buranın sabiq sakinləri daha çox ticarətlə, sənətkarlıqla, həmçinin çoxsaylı meyvə bağlarının becərilməsi ilə məşğul imişlər. Deyilənə görə, hətta onlar o qədər bol meyvə məshulu əldə edirdilər ki, onu indiki Gəncə (Yelizavetpol) dairəsində taxıla dəyişdirirdilər...

Müəlliflər bildirirlər ki, məşhur Türkmənçay müqaviləsi əsasında Rusiyanın əldə etdiyi çox vacib imtiyazlar sırasına, heç şübhəsiz, dədə-baba torpaqlarımıza İranda yaşamış ermənilərin böyük hissəsinin köçürülməsini də aid etmək olar. Həmin dövrdə Naxçıvanın Şərur və Dərələyəz əyalətinə ilk köçürülmə İrandan gətirilmiş 2551 ailə ilə başa çatıb. Onlardan 416 ailə şəhərlərdə, 1869 ailə Naxçıvan dairəsinin və 266 ailə isə Ordubad dairəsinin kəndlərində məskunlaşdırılıb. Bu məlumatlar 1832-ci ilin mart və aprel aylarında aparılmış siyahıyaalmanın nəticələrinə əsaslanır. Hətta çar hökumətinin köçürülən ermənilərin əziyyət çəkməmələri üçün əlavə təzminat ödədiyi də qeyd olunur. Kitabda 1833-cü ildə Dərələyəz mahalındakı kəndlərin adları verilib, 1918-ci il 28 maydan 1920-ci il 28 aprelə kimi hakimiyyətdə olan Azərbaycan Xalq Cümhuriyyətinin Şərur-Dərələyəz mahalının idarə edilməsi haqqında razılıq layihəsi əksini tapıb.

1988-ci ildən başlayaraq Dərələyəzdə baş verən hadisələrin şəxsən iştirakçısı olan müəlliflər qeyd edirlər ki, həmin ilin aprel və may aylarından başlayaraq Dərələyəzin azərbaycanlılar yaşayan kəndində vəziyyət getdikcə pisləşməyə başladı, rayon mərkəzinə gediş-gəliş tamamilə çətinləşdi, ərzaq çatışmazlığı yarandı. Ancaq bütün bunlara baxmayaraq, oranın daimi sakinləri olan azərbaycanlılar öz ata-baba yurdlarını əliyalın da olsa, qoruyurdular. Bu məqsədlə adı dillər əzbəri olan Ələyəz kəndinin alt tərəfində mərkəzi yolu kəsərək özlərinə müdafiə mövqeyi yaratmışdılar. Həmin yer tarixi həqiqətləri əks etdirən Sal-Sal qalasının ətəyində yerləşirdi. Nəşrdə Dərələyəzin ağsaqqallarının bir yerə yığışıb bir neçə nəfər nümayəndə seçərək Bakı şəhərinə göndərdikləri, orada Nazirlər Kabinetinin və Azərbaycan KP MK-nın səlahiyyətli şəxsləri ilə görüşdükləri yazılır. Qeyd olunanlara əsasən o zaman nümayəndələrin bir məqsədi var idi ki, Dərələyəzdən zorla qovulan ailələr Qarabağda yerləşdirilsin. Lakin bu fikir yuxarıların niyyətinə uyğun gəlmədiyindən, həmin ağsaqqalları nəinki müdafiə etdilər, hətta Mərkəzi Komitənin birinci katibi Vəzirovun göstərişi ilə onlara əziyyət verməkdən belə çəkinmədilər, insanlar kor, peşman ümid yeri kimi Naxçıvana gəldilər, burada yerli əhali tərəfindən çox isti münasibətlə qarşılaşdılar, kimin nəyə gücü çatdısa öz köməkliyini onlardan əsirgəmədi...

Kitabda erməni daşnaklarının Dərələyəz əhalisinə divan tutmaları, onları öz yurd-yuvalarından didərgin salaraq qaçqına çevirmələri, minlərlə insanı qətlə yetirmələri tutarlı faktlarla bir daha sübuta yetirilir, Azərbaycan Qaçqınlar Cəmiyyətinin (İndiki Qərbi Azərbaycan İcması) tərtib etdiyi siyahıya əsasən 1988-1990-cı illərdə qətlə yetirilən azərbaycanlıların sayı, eləcə də talan olunan mülklər, qarət edilən təsərrüfatlar, dağıdılan abidələr barədə ətraflı məlumat verilir. Bəzi hesablamalara görə sırf azərbaycanlıların yaşadıqları ərazi 15,467 kvadratkilometr olub. Bu ərazidə həmvətənlərimizə məxsus 216 kolxozun əmlakı, o cümlədən 3420 avtomaşın, 4100 traktor, kolxoz və sovxozların 209 min 20 baş qaramalı, 577 min 90 qoyun-quzusu ermənilərə qaldı, 464 tarixi abidə viran olundu, 230 məscid, pir yerləri, ocaq dağıdılaraq yox edildi, 670 qəbiristanlıq şumlanaraq əkin yerinə çevrildi və saymaqla bitməyən digər vəhşiliklər törədildi. 1988-1989-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 23 rayon üzrə 171, ermənilərlə qarışıq olan 94 yaşayış məskəni boşaldıldı. Nəhayət, 1991-ci il avqustun 8-də Nüvədi kəndindən də sonuncu azərbaycanlının çıxarılması ilə Qərbi Azərbaycanda (İndiki Ermənistanda) bir nəfər də olsun azərbaycanlı qalmadı. Beləliklə, tarixi ədalətsizliyə əsaslanan Ermənistan Ali Sovetinin 22 noyabr 1988-ci il tarixli sessiyasının məxfi göstərişi həyata keçirildi. Tarixən yurd salıb torpağına sahib olmuş insanlar ev-eşiyindən didərgin düşüb Azərbaycanın müxtəlif rayonlarına səpələndilər...

Nəşrdə tarixi faktlara, fundamental mənbələrə əsaslanan məlumatlarla yanaşı, əzəli yurd yerlərimizin qədim, eləcə də dağıntıdan sonrakı fotoları, eyni zamanda hadisə şahidlərinin xatirələri yer alıb. Müəlliflər Dərələyəzin uğrunda canlarından keçərək şəhid olan Vəzir Orucov, Fazil Bayramov, İlqar Abdullayev, Xaliq İsgəndərov, İslam Abışov və digər Vətən oğullarının həyat amalından, göstərdikləri şücaətdən, qəhrəmanlıqdan həm ürək yanğısı, həm də qürur hissləri ilə bəhs edirlər. Ümumilikdə, 4 fəsildən ibarət olan kitabın 3-cü fəslində Dərələyəzdə yazıb-yaradan Əli Əkbər Dərələyəzlinin, Seyid Abbasın şeirlərinə, IV fəsildə Xocalı soyqırımına yer verilir, faciə zamanı erməni vandalizmindən, bir vaxtlar el-obasından zorla köçürülüb Xocalıda məskunlaşan dərələyəzli soydaşlarımızın ikinci dəfə Azərbaycan torpaqlarından qovulduqları və ya şəhid olduqlarından söz açılır, adları qeyd olunur. Ümumiyyətlə, "Dərələyəz taleyi. Şəhidlər və döyüşçülər" kitabında əzəli yurdumuz Dərələyəzin qaranlıq taleyinə arxiv sənədləri, tarixi faktlar, qəhrəmanların həyat hekayələri, hadisə şahidlərinin xatirələri ilə işıq salınaraq dolğun şəkildə aydınlıq gətirilir.

*Ölkə Prezidentinin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə diqqət çəkdiyi məsələlərdən biri də əvvəllər nəşr olunmuş kitabların yenidən böyük tirajda, xarici dillərdə işıq üzü görməsi, beləliklə də, təbliğatın daha da gücləndirilməsi ilə bağlı idi. Fikrimizcə, "Dərələyəz taleyi. Şəhidlər və döyüşçülər" kitabı daha da təkmilləşdirilmiş formada, xarici dillərə tərcümə edilərək çap olunarsa, qədim torpaqlarımıza məxsus tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına mühüm töhfələr verər...*

**Nail ƏSGƏROV**

---

*Dünən Naxçıvan şəhərindəki Xatirə Muzeyində Azərbaycanlıların Soyqırımı Günü münasibətilə dərslər keçilib.*

## Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı dərslər keçilib

Naxçıvan şəhər 6 nömrəli tam orta məktəbin tarix müəllimi Azad Şirzadov tərəfindən keçilən interaktiv dərsdə şagirdlərin diqqətinə çatdırılıb ki, erməni millətçilərinin Azərbaycan xalqına qarşı ərazi iddialarının, təcavüzünün və soyqırımı siyasətinin iki yüz ildən artıq tarixi vardır. Bu mənfur siyasətin məqsədi Azərbaycan torpaqlarının böyük bir qismini ələ keçirmək, azərbaycanlıları tarixi torpaqlarından sıxışdırıb çıxarmaq, sonra həmin ərazilərdə "böyük Ermənistan" dövləti yaratmaqdır. Qeyd olunub ki, 1918-1920-ci illərdə ermənilər tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımı siyasəti qədim və əzəli Azərbaycan torpağı olan Naxçıvandan da yan keçməyib, azğınlaşmış ermənilər burada da qanlı faciələr törədiblər.



Bildirilib ki, Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımların mahiyyəti tam açılmış, həmin hadisələrə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Dahi şəxsiyyət torpaqlarımızın işğalının qarşısını almış, güclü dövlət və güclü ordu yaratmış, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması və erməni saxtakarlığının ifşası istiqamətində tədbirlər görmüşdür. Ulu Öndərin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında ermənilərin Azərbaycan xalqına qarşı apardığı soyqırımı siyasəti dərindən təhlil olunmuş, 31 martın "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd olunması qərara alınmışdır.

Vurğulanıb ki, aparılan araşdırmalar nəticəsində 1918-ci il hadisələri zamanı ermənilərin törətdikləri kütləvi insan qətllərini aşkarlayan faktlar, saysız-hesabsız insan sümükləri və digər maddi sübutlar aşkarlanmışdır. Belə ki, 2007-ci ildə Quba şəhərində tikinti məqsədilə aparılan qazıntılar zamanı təsadüfən aşkar edilmiş kütləvi məzarlıq 1918-ci ildə ermənilərin törətdikləri soyqırımı cinayətlərini əyani olaraq sübut edir. Bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi yaradılmışdır.

Məktəblilərin diqqətinə çatdırılıb ki, 2020-ci ilin sentyabr ayının 27-də Ermənistan Silahlı Qüvvələrinin ölkəmizə növbəti təxribatı Azərbaycan Ordusunu əkshücuma keçməyə məcbur etdi. 30 ilə yaxın bir müddətdə düşmən tapdağı altında qalmış torpaqlarımızın azad edilməsi, beynəlxalq hüquqla təsbit olunan ərazi bütövlüyünün təminatı üçün bütün imkanlardan istifadə etdi, eyni zamanda XXI əsrin döyüş bacarıqlarını ortaya qoymaqla müasir dünyaya necə döyüşməyin nümunəsini göstərdi. Bu Tarixi Qələbə Azərbaycan əsgərinin gücü, onun döyüş hazırlığı və Ali Baş Komandan-xalq-ordu birliyindən qaynaqlanıb.

Qeyd olunub ki, ermənilərin ikiyüzlilik əsassız iddialarının boşa çıxması, Vətən müharibəsində qazandığımız Tarixi Qələbə ilə əzəli torpaqlarımızın işğaldan azad edilməsi haqqın qələbəsidir, xalqımıza qarşı törədilən soyqırımı siyasətinə ən tutarlı cavabdır. İnteraktiv dərs muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbində izlənilib.

***

Həmin gün Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetinin tələbələrinə "Heydər Əliyev irsində azərbaycanlıların soyqırımı və doğma yurdlarından deportasiya edilməsi məsələlərinə münasibət" mövzusunda açıq dərs keçilib.



Dərsdə çıxış edən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi aparatının şöbə müdiri Gülbuta Babayeva tarixboyu xalqımızın əzəli torpaqlarına təcavüzkar siyasət yeridən, qanlı əməllərindən dönməyən mənfur qonşularımızın törətdiyi qırğınlar haqqında məlumat verib, elə təkcə ötən əsrdə azərbaycanlıların dörd dəfə soyqırımı və deportasiyaya məruz qaldığını bildirib.

Sonra Xatirə Muzeyinin direktoru Aytən Qasımovanın "Ümummilli Lider Heydər Əliyev irsində azərbaycanlıların soyqırımı və doğma yurdlarından deportasiya edilməsi məsələlərinə münasibət" adlı məruzəsi dinlənilib.

Dərs universitetin Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Məmməd Əliyevin çıxışı ilə davam edib.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

**Xəbərlər şöbəsi**

# 35 illik tarixi olan açarlar

*Qarabağ münaqişəsinin başa çatmasından sonra Prezident cənab İlham Əliyevin Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarına qayıtmalı olması ilə bağlı çıxışları, həmçinin bu istiqamətdə Qərbi Azərbaycan İcmasının yaradılması sözügedən mövzunu daha da aktuallaşdırıb. Ərazi bütövlüyümüzün bərpasından sonra artıq Qərbi Azərbaycan, Qərbi azərbaycanlılar, onların gələcək taleyi və tarixi ədalət əsas prioritet məsələyə çevrilib. Tarix də göstərir ki, öz torpaqlarından zor gücü ilə çıxarılan xalqlar zamanla yenidən öz torpaqlarına dönür, yenidən məskunlaşırlar.*



Azərbaycan qədim və zəngin tarixə malik sivilizasiya beşiyidir. Ancaq keçmişə nəzər salanda görürük ki, hər zaman torpaqlarımıza göz dikən erməni qəsbkarları müxtəlif zamanlarda Qərbi Azərbaycandakı soydaşlarımızı öz doğma el-obalarından, isti ocaqlarından didərgin salıblar. Bu gün də həmin torpaqlarda tarixi yurd yerlərimizi, maddi-mədəni abidələrimizi talan etməkdədirlər. Azərbaycan xalqının ziyalıları, tarixçi alimləri iradə və əzmkarlıqları ilə bu tarixi öyrənib bir sıra tədqiqatlar nəticəsində müxtəlif əsərlər ərsəyə gətiriblər. Bu tədqiqatçılardan biri – Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Yaqub Mahmudov "İrəvan xanlığı" kitabında yazır ki, bu gün Ermənistanın yerləşdiyi ərazi 180 il bundan əvvəl Azərbaycan torpağı, bu torpağın aborigen əhalisi isə azərbaycanlılar idi. Ermənilər Cənubi Qafqaza gəlmə, daha doğrusu, gətirilmə etnosdur. Bu etnosun yaşadığı "Ermənistan Respublikası" adlanan ərazi isə Azərbaycan torpağıdır. Azərbaycan xalqı yaşadıqca, bu həqiqət də yaşayacaqdır.

Biz də ötən əsrin sonlarında Qərbi Azərbaycandakı soydaşlarımızın yaşadıqları çətinlikləri, isti ocaqlarından necə ayrı düşdüklərini öyrənmək üçün yolumuzu Babək rayonunun Kərimbəyli kəndində məskunlaşan 70 yaşlı ***Güləzban Ağamalıyeva***nın evindən saldıq. Güləzban nənə həmin dövrdə yaşadığı hadisələrdən ürəkağrısı ilə söz açaraq dedi: – 1988-ci ilin 3 dekabrında bizi öz doğma yurdumuz olan İrəvanın Axta kəndindən qovaraq çıxardılar. Onlar tez-tez evlərimizə girib üzərimizə silahlar tutaraq bizi ölümlə hədələyirdilər. Deyirdilər ki, buralardan çıxıb getməsəniz, hamınızı öldürəcəyik. Onların necə vəhşi, necə xain bir millət olduqlarını cümlələrlə ifadə etmək çətindir. Mənim balaca övladlarım əkiz dünyaya gəlmişdi, elə orada xəstəxanada olarkən gözümün önündə bir erməni zabiti gələrək övladlarımdan birini qətlə yetirdi. Bu, bir ana üçün nə qədər çətindir, bilirsiniz? Üç övladım və yoldaşımla birlikdə buraya pənah gətirdim. Bizi oradan qovarkən yaşadıqları vəhşiliklər hələ də gözümün önündə canlanır. Yoldaşım oradakı ermənilərdən biri ilə milli zəmində mübahisə etdiyi üçün onun bizimlə gəlməsinə icazə vermirdilər. Onu tapsalar öldürəcəklərini bilirdik. Yoldaşımı yorğan-döşəyə büküb gizlədərək buraya gətirə bildik. Evimizi tərk edərkən içəri girib təzə aldığım stulları qırmaq istədim, amma əlim gəlmədi, düşündüm ki, bəlkə, nə zamansa geri dönərəm. Bütün kənd sakinləri təşviş içərisində evlərini tərk edirdi. Mən də ailəmlə birgə hamı kimi tələm-tələsik, qorxu içərisində evimin, tövləmin, təndirimin qapılarını bağlayaraq oranı tərk etdim. Evimdən mənə xatirə qalan 28 açar oldu. Müsahibim deyir ki, oradan qovulduqdan sonra Naxçıvana gəliblər. Burada onlara sığınacaq veriblər, torpaq sahəsi ayırıblar: – Gördüyünüz bu sahə mənim övladlarımı rahatlıqla, qorxmadan böyütməyimə imkan verdi. Gözləri dolan Güləzban nənə söhbətinə belə davam etdi: – Bir neçə il bundan əvvəl evimdən mənə xatirə qalan 28 açarı həyətimin aşağısında olan bir ağacın altında basdırmaq qərarına gəldim. Düşünürdüm ki, nə vaxtsa evimə qayıtsam, o açarları götürüb əllərimlə bağladığım doğma qapılarımı yenidən açaram. Dayana bilməyib 3 gün sonra o açarları götürməyə gedəndə yerində tapa bilmədim. Hələ də bunun peşmanlığını çəkirəm.

Taleyin ona yaşatdığı əzablardan saçlarına dən düşən Güləzban nənə dedi ki, xalqımızın qəhrəman oğulları və Ali Baş Komandanımız 44 günlük müharibədə ermənilərə layiq olduqları cavabı verdi. Allah cənab Prezidentimizi qorusun. Mənimsə bu dünyadan köçməzdən əvvəl bir arzum qapısını bağlayaraq çıxdığım evin qapılarını açmaqdır. Ümid edirik ki, Güləzban nənənin və onun kimi yüzlərlə soydaşımızın doğma yurduna qayıtmaq arzuları bir gün mütləq reallaşacaq. Artıq deportasiyadan 35 il keçir, buna baxmayaraq, onların heç birinin yurdlarını arzulamadıqları bir gün belə olmayıb. Kütləvi informasiya və sosial şəbəkələr vasitəsilə evlərinin şəkilləri, videolentləri izləyən soydaşlarımızın yarası hər dəfə təzələnir. Dədə-babalarından miras qalan yurdda onlara qarşı törədilmiş cinayətlər hüquq müstəvisində də qəbuledilməzdir. "Qərbi Azərbaycan" mövzusu xalqımızı bir ideya ətrafında dəmir yumruq kimi birləşdirib. Bu isə bütün qaçqın soydaşlarımızın 35 il həsrətlə gözlədikləri doğma torpaqlarına qovuşmaq ümidlərinin reallaşacağının uzaqda olmadığı deməkdir.

**Bülbül QULİYEVA**

## 31 mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş sərgi



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına sərgi salonunda 31 mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr edilən rəsm sərgisi açılıb.

Sərgidə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva 1918-ci ilin mart-aprel aylarında Bakı şəhərində, eləcə də Bakı quberniyasının müxtəlif bölgələrində, habelə Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ və digər ərazilərdə daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınlar barədə məlumat verib.



Vurğulanıb ki, 44 gün ərzində başa çatan II Qarabağ müharibəsində rəşadətli Azərbaycan Ordusu işğalçı, vandal Ermənistanın yüz illər ərzində qurduğu silahlı qüvvələri darmadağın edərək böyük Tarixi Qələbə əldə etdi.

Daha sonra şəhid Bağır Ələkbərov və İsmayıl Vəliyevin portretləri yaxınlarına təqdim edilib.

Məlumat üçün bildirək ki, 1 həftə davam edəcək sərgidə 15 rəssamın 28 əsəri nümayiş etdirilir.

**Aytac CƏFƏRLİ**

## Yaşıllıq sahələri genişləndirilir

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının Ordubad rayonunun Düylünçay yatağı yaxınlığında 1 hektar sahədə 500 ərik və 300 tut tingi, eyni zamanda Arazboyu Dövlət Təbiət Yasaqlığı ərazisində Qaraxanbəyli kəndi yaxınlığındakı 0,5 hektar sahədə 310 badam tingi əkilmişdir.



Həmçinin Milli Parkın Şahbuz rayonunun Biçənək kəndi yaxınlığındakı "Zərnətün" adlanan ərazidə isə 5 hektar əvvəlcədən şırım açılmış sahədə toxumla əkin aparılmışdır. Əkin zamanı ərazinin iqlim şəraitinə uyğun olan ağac və kol bitkilərinin toxumlarına, o cümlədən yemişan, həmərsin, alça, badamça və sınaq məqsədilə həm də sumaq toxumları əkilmişdir. Bu kimi tədbirlər yaşıllıq sahələrinin genişləndirilməsi ilə yanaşı, torpağın münbitliyinin qorunması, külək və su eroziyasının qarşısının alınmasında mühüm rol oynayır. Ağac və toxum əkini tədbirləri digər ərazilərdə də davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## *"Qanunçuluq və hüquq düşüncəsi"* adlı kitab nəşr olunub




"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində "Qanunçuluq və hüquq düşüncəsi" adlı yeni kitab işıq üzü görüb. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərovun müəllifi olduğu kitab Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə ithaf edilib.

Kitabda müəllifin kütləvi informasiya vasitələrində, o cümlədən "Şərq qapısı" qəzetində, "Azərbaycan prokurorluğu" jurnalında, "Nuhçıxan" və *naxcıvanxəbərləri.com* saytlarında gedən məqalələri və digər materialları toplanıb.

Yeni nəşrin elmi redaktoru hüquq üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının baş müəllimi Malik Səlimov, məsləhətçisi Naxçıvan Muxtar Respublikası prokurorunun müavini, baş ədliyyə müşaviri Sənan Paşayev, rəyçiləri hüquq elmləri doktoru, dosent Nazim Əliyev, hüquq üzrə fəlsəfə doktoru, dosent, İmrəli Məmmədli və Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının müəllimi Əziz Qasımovdur.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə ithaf olunan bu kitabda Ulu Öndərin milli dövlət quruculuğundakı misilsiz xidmətləri, Azərbaycanda hüquq islahatlarının memarı kimi geniş fəaliyyəti, prokurorluq orqanlarına qayğısı, Azərbaycan Respublikasının cinayət, cinayət-prosessual, inzibati və digər qanunvericilikləri, "Prokurorluq haqqında", "Prokurorluqda qulluq keçmə haqqında" qanunları, elmi-nəzəri və praktiki materiallar əsasında Azərbaycan Respublikası Prokurorluğunun yaranması və inkişaf tarixi, məhkəmə-hüquq islahatlarının tərkib hissəsi kimi onun strukturunun və fəaliyyət istiqamətlərinin təkmilləşdirilməsi, prokurorluq orqanları əməkdaşları tərəfindən qərarların qəbulu və icrası zamanı hüquq düşüncəsinə əsaslanmaqla qanunçuluğun təmin edilməsi məsələləri geniş işıqlandırılıb.

Yeni nəşrdən hüquq təhsili verən ali məktəb tələbələri, magistrantlar, aspirantlar, doktorantlar, hüquq-mühafizə orqanlarının əməkdaşları, habelə geniş ictimaiyyət nümayəndələri faydalana bilərlər.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 17 aprel 2023-cü il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq nəqliyyat vasitəsi | Tipi | Buraxılış ili | Sayı (ədədlə) | 1 ədəd nəqliyyat vasitəsinin satış qiyməti (manatla) | 1 ədəd nəqliyyat vasitəsinin satış qiyməti 50 faiz güzəştlə (manatla) | İlkin satış qiymətinin 10 faizi həcmində hesablanmış behin məbləği (manatla) |
|---|---|---|---|---|---|---|---|
| 1. | OPEL VEKTRA | Minik | 2008 | 1 | 10000.0 | 5000.0 | 1000.0 |
| 2. | NAZ LİFAN LF7132-320 | Minik | 2010 | 1 | 6000.0 | 3000.0 | 600.0 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan nəqliyyat vasitələrinin ilkin satış qiymətinin 10 faiz məbləğində beh mərkəzin xəzinə hesabına 14 aprel 2023-cü il tarixədək ödənilməlidir.

Sifarişlər Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan nəqliyyat vasitələrinin sənədləri ilə mərkəzdə tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *müvafiq formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 17 aprel 2023-cü il tarixdə saat $11^{00}$-da mərkəzdə keçiriləcəkdir.

***Əlavə məlumatı Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzindən ala bilərsiniz***
***Əlaqə telefonu: 545-01-38***

## Naxçıvanlı güləşçi mükafatçılar sırasında



Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə gənclər (U-20) arasında Azərbaycan çempionatı keçirilib. Yarışda Naxçıvan Güləş Federasiyasının yetirməsi Əli Səfərov 92 kiloqram çəki dərəcəsində mübarizə aparıb. Finala qədər maneəsiz irəliləyən Naxçıvanlı idmançı həlledici görüşdə komanda yoldaşı Rəvan Musayevlə (Olimpsport) qarşılaşıb. Gərgin keçən görüşdə rəqibi qalib gələn tərəf olub. Bununla da Əli Səfərov ölkə çempionatını ikinci yerdə tamamlayaraq gümüş medala sahib çıxıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Əsgərov Əjdər Telman oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Heydərov Ramiz Cəmşid oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Cəmşidli Naib Ramiz oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Güntac Şahməmmədli

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 228